# Alim ömrünün parlaq səhifələri

**Gəncədə fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti ölkənin qabaqcıl təhsil müəssisələrindəndir. 1920-ci ildə təməli qoyulan qocaman elm ocağı 2020-ci ildə özünün şanlı 100 illiyini qeyd etməyə hazırlaşır.**

Hazırda universitet ölkə başçısı cənab İlham Əliyevin diqqət və qayğısı ilə sürətli inkişaf dövrünü yaşayır. Bu günə kimi bu elm məbədi minlərlə mütəxəssisə həyat vəsiqəsi vermiş, Azərbaycanda aqrar sektorun inkişafında kadr bazası kimi, müstəsna xidmətləri ilə seçilmişdir. ADAU dedikdə göz önünə, ilk növbədə, uzun illər onun geniş və işıqlı auditoriyalarında, elmi-tədqiqat sahələrində yorulmadan çalışmış kənd təsərrüfatı üzrə mütəxəssislər, adlı-sanlı alimlər gəlir. Bu sırada Azərbaycan Dövlət Aqrar Univeristetinin Maşın Mühəndisliyi və Standartlaşdırma kafedrasının müdiri, texnika elmləri doktoru, professor Ziyad Mehralı oğlu Abbasovun xüsusi yeri var. Onun elmi və elmi-ictimai fəaliyyətini səhifələmək alimin 80 illik yubileyi günündə yerinə düşər.

Professor Ziyad Abbasov 1939-cu il oktyabrın 10-da Göyçə mahalının Kəsəmən kəndində anadan olub. 1946-1952-ci illərdə həmin kəndin yeddillik məktəbini, 1952-56-cı illərdə Şişqaya kənd orta məktəbini bitirmişdir. 1957-ci ildə İrəvan Kənd Təsərrüfatı Texnikumunun aqronomluq şöbəsində oxumuş, 1958-1963-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət Aqrar Univeristeti) mexanikləşdirmə fakültəsini bitirmişdir.

1963-1965-ci illərdə ordu sıralarında xidmət etmiş və 1966-cı ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrikləşməsi İnstitutunun aspiranturasında təhsil almış, 1974-cü ildə namizdəlik dissertasiyasını müdafiə etmişdir.

Ziyad Abbasovun namizədlik dissertasiyası keçmiş SSRİ "ВНЕШТЕХНИКА" Birliyinin qərarı ilə müqavilə əsasında Almaniya Demokratik Respulikasına satılmışdır. (24 mart 1976-cı il tarixli, 38-3/667 N-li məktub).

1970-1986-cı illərdə həmin institutda şöbə müdiri, 1986-1996-cı illərdə elmi işlər üzrə direktorun müavini, 1996-2003-cü illərdə isə institutun direktoru vəzifələrində işləmişdir.

1997-ci ildə rəhbərlik etdiyi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrikləşdirilməsi İnstitutunun Sabirabad Dayaq Məntəqəsinin və Gəncə Xüsusi Konstruktor Bürosunun bazasında onun təklifi ilə "Aqromexanika Elm-İstehsalat Mərkəzi" yaradılmışdır. Müxtəlif vaxtlarda o, institutun ictimai təşkilatlarına rəhbərlik etmiş, 1990-1995-ci illərdə Gəncə şəhər sovetinə deputat seçilmişdir.

1975-1989-cu illərdə Z.Abbasovun elmi rəhbərliyi altında genişmiqyaslı kompleks elmi-tədqiqat işlərinə başlanmış, SSRİ-nin Moskva, Leninqrad, Həştərxan, Volqoqrad, Minsk, Kirovoqrad, Rostov kimi iri sənaye şəhərlərinin aparıcı elmi- tədqiqat, layihə-konstruktor müəssisələri və maşınqayırma zavodları ilə sıx elmi əlaqələr yaradılmışdır. Z.Abbasovun rəhbərliyi altında patent və ixtiralar səviyyəsində SSRİ miqyasında Azərbaycan Respublikasında orijinal, torpaqqoruyucu texnologiya və texnoloji maşınlar kompleksi yaradılmışdır. 1979-cu ildə Gəncə şəhərində təşkil edilmiş Sənaye və Kənd təsərrüfatı sərgisində ümummilli lider Heydər Əliyev yeni texnoloji maşınlar kompleksi ilə tanış olmuş və onun ittifaq miqyasına çıxarılmasını məsləhət görmüşdü. Yalnız bundan sonra yeni maşınlar SSRİ-nin 1986-1995-ci illər Perspektiv Maşınlar Sisteminə salınaraq maliyyələşdirilmiş və Azərbaycanda, Həştərxanda və Volqoqrad vilayətlərində geniş tətbiq edilməyə başlamışdır.

Azərbaycanda kənd təsərrüfatının sürətlə inkişaf etdiyi Heydər Əliyev dövründə Kənd Təsərrüfatı Nazirliyi Kollegiyasının qərarı ilə o, 7 dəfə "Zərbəçi" döş nişanı və 1986-cı ildə SSRİ Ali Soveti Rəyasət heyətinin Fərmanına əsasən "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur.

Yeni maşınlar müxtəlif vaxtlarda Moskvaya, Çexoslovakiyaya, İran İslam Respublikasına, Rumıniyaya, Vyetnama, eyni zamanda SSRİ Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Texniki Şurasının qərarına əsasən, Minsk Traktor Zavodu bir ədəd eksperimental traktor hazırlayaraq, yeni texnologiya üçün Azərbaycana göndərmişdir.

Professor Ziyad Abbasov özünün elmi məktəbini yaratmış və onun elmi rəhbərliyi altında 19 nəfər elmlər namizədi hazırlanmışdır. Həmin alimlər hazırda Amerika Birləşmiş Ştatlarında, respublikamızın müxtəlif universitetlərində, istehsalatda müvəffəqiyyətlə işləyirlər. Z.Abbasov 200-dən çox elmi əsərin, 30 patent və ixtiraların, 1 monoqrafiyanın, 3 kitabın və 2 sanballı dərsliyin müəllifidir.

Professor Ziyad Abbasovun 2017-ci ildə respublikada ilk dəfə olaraq Azərbaycan dilində yazdığı və dərc etdirdiyi "Kənd Təsərrüfatı Maşınqayırma texnologiyası" adlı dərslik kitabının 2-ci nəşri 2019-cu ildə ingilis dilində Almaniyada nəşr edilmiş və satışa çıxarılmışdır.

Müxtəlif vaxtlarda o, Türkiyə, Rusiya və Azərbaycanda keçirilən beynəlxalq simpozium, konfrans və konqreslərdə məruzə ilə çıxış etmiş və onun əsərləri xarici dillərdə dərc edilmişdir. Yeni texnoloji maşınlar kompleksinin geniş tətbiqinə görə ona 1989-cu ildə "Azərbaycan Respublikasının Əməkdar İxtiraçısı" fəxri adı verilmişdir.

Professor Ziyad Abbasov Gəncə Regional Aqrar Elm Mərkəzinin direktoru kimi 2000-2007-ci illərdə akademik Cəlal Əliyevin yüksək məhsuldar taxıl sortlarının Gəncə-Qazax bölgəsində və Borçalı mahalında geniş yayılmasında bilavasitə iştirak etmişdir.

Ziyad müəllimin bir vətənpərvər ziyalı kimi fəaliyyəti də şəhər ictimaiyyətinin daim xatirindədir. Hələ 1989-cu ilin "7 noyabr" şəhər paradında institutun direktoru vəzifəsində işlədiyi vaxt üçrəngli bayrağımızın nümayişdə qaldırılmasına nail olmuşdur. Tanınmış alim 1990-cı ilin 20 yanvar facisəsindən sonra Kommunist Partiyası sıralarından çıxmış və o dövrkü Gəncə şəhər rəhbərliyinin etirazına baxmayaraq, Gəncə şəhərində bu gün də mövcud olan "20 Yanvar Şəhidləri Bağı"nın salınmasında xüsusi xidmətlər göstərmiş, bağın və abidənin xərclərini öz üzərinə götürmüşdür.



Aqrar sahədə xidmətlərinə görə professor Ziyad Abbasova Azərbaycan Respublikası Prezidentinin 31.10.2008-ci il tarixli 20 saylı sərəncamı ilə Azərbaycan Respublikasının "Əməkdar Kənd Təsərrüfatı İşçisi" fəxri adı verilmişdir.

Texika elmləri doktoru, professor Ziyad Mehralı oğlu Abbasovu 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona elmi-pedaqoji fəaliyyətində uğurlar diləyirik.

**Şahlar BABAYEV,**
**texnika üzrə elmlər doktoru, professor,**
**Maarif RZAYEV,**
**ADAU-nun "Aqrar mütəxəssis" qəzetinin baş redaktoru.**